***Folklorşünaslıq: problemlər, tədqiqlər***

***Asif HACILI***
***f.e.d., prof.***
***e-mail: asif.hajiyev@au.edu.az***
***ORCID: 0009-0005-9462-511X***
***Azərbaycan Universiteti***
***Gülnar RZAYEVA***
***fil.ü.f.d. e-mail: gulnar.rzayeva@au.edu.az***
***ORCID: 0000-0003-0584-0781***
***Azərbaycan Universiteti***
*https://doi.org/10.59849/2309-7949.2025.3.43*

# ŞUŞA ƏDƏBİ MÜHİTİ: ORTA ƏSRLƏR VƏ YENİ DÖVR

**Açar sözlər:** Qarabağ folkloru, Qarabağ ədəbi mühiti, maarifçilik, Azərbaycan ədəbiyyatı, Şuşa

**РЕЗЮМЕ**

**ЛИТЕРАТУРНАЯ СРЕДА ШУШИ: СРЕДНИЕ ВЕКА И НОВОЕ ВРЕМЯ**

Литературная среда Шуши сформировалась в едином азербайджанском и карабахском культурном контексте под влиянием тюркско-исламской, албано-христианской и различных региональных культур. В древних городах Карабаха, таких как Барда и Бейлаган, процветала литература на арабском, персидском и родном языках. Элегия Давдага, посвящённая Джаванширу, является ранним примером придворной поэзии и традиций государственности в Карабахе. Эта среда представляет собой ценный источник для изучения национальной и этнической идентичности азербайджанской литературы.

**Ключевые слова:** Карабахский фольклор, Карабахская литературная среда, просветительство, азербайджанская литература, Шуша

**SUMMARY**

**THE LITERARY ENVIRONMENT OF SHUSHA: THE MIDDLE AGES AND THE MODERN ERA**

The literary environment of Shusha developed within the broader Azerbaijani and Karabakh cultural context, influenced by Turkic-Islamic, Alban-Christian, and various regional cultures. In ancient Karabakh cities such as Barda and Beylagan, literature in Arabic, Persian, and the native language flourished. The elegy composed by Davdağ for Javanshir is an early example of palace poetry and statehood traditions in Karabakh. This environment provides a rich source for studying the national and ethnic identity of Azerbaijani literature.

**Key words:** Karabakh folklore, Karabakh literary environment, Enlightenment, Azerbaijani literature, Shusha

Şuşanın mədəni inkişafı bu şəhərdə bədii ədəbiyyatın da inkişafına təsir göstərmiş, burada özünəməxsus ədəbi mühit formalaşmışdır. Bərdə, Beyləqan kimi qədim məskənləri olmuş Qarabağda tarixin erkən dövrlərindən anadilli xalq yaradıcılığı ilə yanaşı, ərəb və fars dillərində yazan qarabağlı müəlliflər də məş-

hurlaşmış, Orta əsrlərdən Bərdəi, Beyləqani imzalı mütəfəkkirlərin və ədiblərin adı tarixı düşmüşdür. Bunlardan elmi qaynaqlar əsasında təsbit edilmiş ilk əsər, şair Davdağın erməni fətvası ilə qətl edilmiş Alban-Partav-Bərdə çarı, sərkərdəsi Cavanşirə yazdığı ağıdır. Bu şeir ədəbi əhəmiyyəti ilə bərabər, Qarabağ ərazisində həmin dövrdə artıq formalaşmış dövlətçilik və saray mədəniyyətinin, zəngin poeziya ənənəsinin olduğunu təsdiqləyir. Tədqiqatçıların göstərdiyi kimi, X əsrdə ərəb dilində yazmış qarabağlı mütəfəkkir və ədiblərdən Əbu Bəkir Əhraəd əl-Bərdəi, Məkki ibn Əhməd Bərdəi, Xətib Bağdadi Məhəmməd Əl-Bərdəi, Əhməd ibn əl-Hüseyn Əbu Səid əl Bərdəi, Əbu Əli əl-Bərdəi, Səid ibn əl-Qasim əl Bərdəi, Əbu Səd ibn Yəhya əl-Bərdəi məhəlli deyil, bütöv islam Şərqində tanınmış mütəfəkkir şairlər olmuşdur (Mahmudov 1983).

XI-XII əsrlərdə Qarabağda yalnız ədəbi deyil, elmi, dini-fəlsəfi fikir də yüksək səviyyədə olmuş, Səid Əmirül Bərdəi, Məhəmməd Abdulla Bərdəi, Mücirəddin Beyləqani, Zəld ibn Hüseyn ibn Ömər Beyləqani Şərq-islam fəlsəfəsinin, ilahiyyatın inkişafında əhəmiyyətli rol oynamışlar. Bu mütəfəkkirlərdən Mücirəddin Beyləqaninin, "İncil"i ərəb, fars və türk dillərinə tərcümə etmiş Məsud Namidarın poetik yaradıcılığı da yüksək qiymətləndirilmiş, böyük türk şairi Əmir Xosrov Dəhləvi onun yaradıcılığını Xaqani Şirvaninin yaradıcılığı ilə müqayisə edərək, ondan üstün tutmuşdur. Mücirəddinin müasiri olmuş Zəld ibn Hüseyn ibn Ömər Beyləqani Şərq İntibahının mühüm mərkəzlərindən olan Dəməşqə gedərək, Şərq-islam fəlsəfəsini və bədii-estetik fikrini orijinal əsərləri ilə zənginləşdirmişdir. Sonrakı dğvrlərdə Qarabağlı ədiblərdən, mütəfəkkirlərdən Tuti Abdulla Qarabaği (XIV əsr), Qarabağlı Şeyx İbrahim ibn Məhəmməd Şəhabəddin Bərdəi (Gülşəni) (XV), Mövlanə Yusif ibn Məhəmmədşahi Qarabağinin (XVI-XVII) əsərləri Yaxın Şərqdə tanınmışdır. XVIII əsrdə şair Mirmöhsün Ləmbərani Asəf, Aşıq Əli, Aşıq Valeh. Ziyadi Qarabaği, Molla Pənah Vaqif artıq milli ədəbi-bədii düşüncəni müəyyənləşdirmiş və yeni səviyyəyə qaldırmışlar. Mədəniyyət və sənətin, ədəbiyyatın milliləşməsində XVI əsrdə Şah İsmayıl Səfəvinin milli dövlətçiliyə, dilə və ədəbiyyata verdiyi önəmin təsirinin Azərbaycan və o cümlədən Qarabağ ədəbi-mədəni mühitinin xəlqiləşməsində xüsusi rolunu da qeyd etmək istərdik. Qarabağ və ümumən milli ədəbiyyatımızda müstəsna rolu olan, "yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular şairi... realist şeirin ilk nümunələrini" yaradan [Araslı 2004: 6-7], Şuşada böyük nailiyyətlər qazanan, xanın vəziri mənsəbinə yüksələn, dövlət məsələlərini həll edən və eyni zamanda maarifçilik və bədii yaradıcılıqla məşğul olan Molla Pənah Vaqif və onunla həmfikir olan digər qələm sahiblərinin sayəsində Qarabağ-Şuşa mühiti milli maarifçiliyin və maarifçi realizmin təşəkkül tapdığı, ədəbiyyatımızda xəlqi, həyati, realist meyarların meydana çıxdığı, tarixi poetikamızda yeni keyfiyyət mərhələsinin başladığı mərkəzlərdən biri olmuşdur. Təxminən elə bu dövrlərdən və xüsusən XVIII əsrdən başlayaraq, Azərbaycan milli-etnik şüurunun və mədəniyyətinin inkişafında və xəlqiləşməsində, maarifçiliyin təşəkkülündə Qarabağ xüsusi mövqe tutmağa başlayır, türkdilli yazılı ədəbiyyatın XIII əsrdən izlənən tədrici intişarı getdikcə vüsətlənir və anadilli ədəbi

yaradıcılıq genişlənməyə başlayır. Xalq yaradıcılığının, xüsusən aşıq mühitinin də bu prosesdə mühüm rolu olur. Qarabağ aşıq mühiti haqqında monoqrafik tədqiqat müəllifi Nəbiyeva Almara qeyd edir ki, "Qarabağda XVIII-XIX əsrlərdə aşıq sənəti öz yüksəliş dövrünü keçirmiş, burada Aşıq Qurbani, Aşıq Abdulla (Sarı Aşıq), Aşıq Səməd, Aşıq Valeh, Aşıq Qəmbər, Aşıq Abbasqulu, Aşıq Nəcəfqulu, Aşıq Cəfərqulu kimi sənətkarlar yetişmişdir" (Nəbiyeva 2019: 19).

Professor Mahmud Allahmanlı, Qurbani, Sarı Aşıq, Aşıq Səməd, Aşıq Valeh, Aşıq Abbasqulu kimi klassik saz ustadları yetişdirən Qarabağ aşıq mühitinin artıq XVIII əsrdən xüsusi siqlət, yeni məzmun və forma özəlliyi qazandığını təsdiqləyir: "XVIII əsrdə Azərbaycanın digər yerlərində olduğu kimi, Qarabağda da öz poetik məziyyətləri ilə secilən maraqlı bir mühit fəaliyyət gostərirdi. Onun Molla Pənah Vaqif, Aşıq Səməd, Abdulla Canızadə, Baba bəy, Aşıq Valeh, Aşıq Qənbər kimi görkəmli nümayəndələri sənət inciləri ilə bütün ətraf əyalətlərdə məşhur idilər" (*Allahmanlı 1989:* 19). *Lakin bu və digər aşıqlar, şairlər xəlqiliyi və bir qədər sonra milliliyi yalnız dildə, şeirdə deyil, ictimai-tarixi məsələlərdə də önə çəkirlər. Almara Nəbiyevanın vurğuladığı kimi* (Nəbiyeva 2019: 12), "1910-cu ildə Tiflisdə "Pesnya Valexa" adlı yazısını çap etdirmiş" Firudin bəy Köçərli "Valeh haqqında ətraflı məlumat verərək yazır ki, aşığın Qarabağ xanlığının tarixinə aid "bir mənzulatı var ki, mətəəssüf, ələ gətirə bilmədik. Onun övladı Aşıq Abbasqulu bizə söz vermişdi ki, Kərbalayı Səfinin tamam əşarü əsarını bizə göndərsin, vəli əhdinə vəfa etmədi" (Köçərli 1978: 333- 334).

Tədqiqatçı Almara Nəbiyeva haqlı olaraq güman edir ki, "Bəlkə də Aşıq Valehin və ustadı Aşıq Səmədin külliyyatı 1905-1907-ci illərdə baş verən erməni-müsəlman qırğınında yandırılıb məhv edildiyindən onların yaradıcılığı bizə tam gəlib çatmamışdır" (Nəbiyeva 2019: 8).

Onu da qeyd edək ki, XVIII əsrdə Azərbaycan mədəniyyətinin və ədəbiyyatının milli zəmində yeniləşməsinin, Avropa maarifçi ideyalarının və realizmin qərarlaşmasının ərəfəsində, yəni XVI-XVII yüzilliklərdə də ədəbiyyatda, folklorda maraqlı proseslər gedirdi. Bu dövrdə – xalq yaradıcılığı və ədəbiyyatda hadisəvilik, macəraçılıq, personajların müəyyən xəlqiliyi və reallığı ilə yanaşı, folklor yaradcılığının janr etibarilə zirvəsi olan məhəbbət dastanlarının mükəmməl şəkildə formalaşması və ədəbi inkişafa təkan vertməsi mərhələsi olmuşdur. Azərbaycanda və o cümlədən Qarabağda XVIII əsrdə yeni, maarifçi estetik-bədii şüurun formalaşması yalnız Qərb təsiri ilə deyil, həm də tarixi-ictimai, ədəbi-mədəni proseslər və xalq yaradıcılığı, o cümlədən məhəbbət dastanları və lirik şeir janrları zəminində baş verdi.

Məhz XVIII əsrdə mədəniyyətdə və ədəbiyyatda xəlqilik, dünyəvilik, realizm və bu əsasda maarifçiliyin ilkin qaynaqları təşəkkül tapır. Lakin XVIII və XIX əsrin əvvəllərinin realist maarifçiliyi cəmiyyətin və insanların islahına, XIX əsrin sonu – XX əsrin əvvəllərinin yetkin maarifçiliyi isə çıxılmaz konfliktləri ədəbiyyata gətirir, mövcud cəmiyyətin ifşasına, inkarına yönəlir (Hacıyev 2010).

Şuşanın Molla Pənah Vaqif, Ağabəyim Tuti, Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Əbdürrəhim bəy Haqverdiyev kimi bir çox qabaqcıl ədibləri bu prosesdə mühüm rol oynayıb.

Görkəmli alim Həmid Araslı məhz bu amillərə görə Vaqifin, dolayısı ilə, Şuşa ədəbi mühitinin bütövlükdə milli şeirimizi yeniləşdirdiyini bildirir: "Vaqif yaradıcılığı lirik poeziyanın artıq müəyyən inkişaf yolu kecib formalaşmaqda olduğu bir dövrə təsadüf edir. Vaqif isə formalaşmaqda olan lirik şeri yeni realist inkişaf yoluna salaraq, onu xalq ruhuna, xalq zövqünə yaxınlaşdırmış, özünə qədərki fərqli bir yolla istiqamətləndirmişdir. Vaqif yaradıcılığı ilə Azərbaycan şeiri tarixində yeni bir dövr başlanır. Vaqif lirikası ilə poeziyada yeni bir səhifə acılır, poeziyamızda nikbin bir əhvali-ruhiyyə, həyati və dünyəvi gözəlliyə pərəstiş hissləri qüvvətlənir. Realist şeirin ilk nümunələri onun adı ilə bağlıdır" (Araslı 2004: 6).

Qarabağ ədəbi və folklor mühitinin xüsusi özəlliyi həm də burada aşıq yaradıcılığının xüsusi əhəmiyyəti və ədəbiyyatda yeni meyllərin formalaşmasında böyük rol oynaması ilə bağlıdır (Nəbiyeva 2019: 8).

"XVIII-XIX əsrlərdə aşıq sənəti öz yüksəliş dövrünü keçirmiş, burada Aşıq Qurbani, Aşıq Abdulla (Sarı Aşıq), Aşıq Səməd, Aşıq Valeh, Aşıq Qəmbər, Aşıq Abbasqulu, Aşıq Nəcəfqulu, Aşıq Cəfərqulu kimi sənətkarlar yetişmişdir" (Nəbiyeva 2019: 19).

Qarabağ ədəbi mühitinin görkəmli tədqiqatçısı Qurban Bayramov Vaqifin aşıq şeiri ilə bu dialoji əlaqəsini əyani nümunələrlə təsbitləmişdir (Bayramov 2017).

Qarabağ xanlığının mərkəzi Şuşanın (Pənahabad) saray mühitinin yüksək mədəni səviyyəsini təsbitləyən dəlillərdən biri xan ailəsinin üzvlərinin yüksək savadı, biliyi, davranış mədəniyyəti, ziyalı xarakteri və tərbiyəsi olmuşdur. Qarabağ xan sülaləsinin nümayəndələrinin böyük əksəriyyəri dövrünün görkəmli ziyalıları olmuş, çar dövründə yüksək mənsəblər tutmuş, eyni zamanda elmə, sənətə, ədəbiyyata böyük maraq göstərmişlər. Xan qızı Xurşidbanu Natəvan görkəmli şair, sənət adamı, xeyriyyəçi, "Məclisi-üns"ün hamisi və rəhbəri olaraq ədəbiyyatımızın, mədəniyyətimizin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Cavanşirlər sülaləsinin ədəbi yaradıcılıqla məşğul olan belə nümayəndələrindən biri də Ağabəyim ağa Tutidir.

İbrahimxəlil xanın qızı, şairə Ağabəyim ağanın (Ağabəyim ağa Tuti, Kiçikbəyim, Ağabacı) aldığı savad, istedadı, həyat yolu və çox az bir qismi qalmış əsərləri ilə diqqətə layiqdir. 1782-ci ildə Xankəndidə anadan olmuş, 1832-ci ildə Tehranda vəfat etmiş Ağabəyim Ağa ərəb və fars dillərindən başqa fransız dilini bilən, məşhur şəxsiyyətlərlə məktublaşan, hətta Napoleona və rus çariçasına məktublar yazan və çariçadan rəğbət dolu cavab alan yüksək mədəni səviyyəli ziyalı xanım olmuşdur. Eyni zamanda xeyirxahlığı, rəhmdilliyi ilə fərqlənmiş, sadə insanlara, məzlumlara qayğı göstərən, əsirləri xilas edən mərhəmət və adil insan kimi tanınmışdır. Ağabəyim ağa həm də ədəbiyyatı, sənəti dərindən bilib.

Yusif Vəzir Çəmənzəminlinin “Qan içində” romanında göstərdiyi kimi, ana tərəfdən Şahsevənli Bədir xanın nəslindən olan Ağabəyim ağanın həm də at minib cıdıra çıxmasını, tüfəng atmaq, qılınc oynatmaq onun üçün təbii bir ehtiyac olduğunu, əfsanə və nağıllara, şeirə, böyük həvəsi olduğunu, türk şairlərini oxuyub, xoşuna gələn gözəl parçaları bəyazına köçürüb əzbərlədiyini göstərir (Çəmənzəminli 1967).

Molla Pənah Vaqiflə ünsiyyətdə olmuş Ağabəyim Ağanın ədəbiyyata böyük marağı yaranıb və o, mühitinin əksər şairlərinin yaradıcılığına bələd olub: “Dövrünün bir sıra tanınmış – M.P.Vaqif, M.V.Vidadi, Müştaq, Nəbi, Raci, Rafe, Müştəri, Ağa Məsih, Nişat, Arif, Aciz, Aşıq Əli, Əbdürrəhman Ağa Şair, Vaqif Təbrizli Qövsü və s. şairlərin xüsusi poetik nümunələrinə onun daim üzərində gəzdirdiyi “Bəyaz”da rast gəlmək olardı. O, bu şairlərin yaradıcılığını yüksək qiymətləndirir və yeri gəldikcə onlardan bəhrələnirdi” (Nəbiyeva 2019: 114).

Vətənpərvər şairə, yurduna, kökünə bağlı kübar ziyalı Ağabəyim Ağanın həyatında dönüş nöqtəsi İran şahının siyasi məramla onu xanımı olaraq sarayına istəməsindən sonra başlayır. İran şahının İbrahimxəlil xana göndərdiyi məktubda deyilirdi: «hər iki tərəfin xatircəmliyi ucun əziz və mohtərəm qızınız Ağabəyim ağanı bizim hərəmxanəyə layiq bilməlisiniz. O bizim hərəmxanamızın xanımı olmalıdır» (Qarabaği I k. 2006: 19).

Siyasi şəraiti nəzərə alaraq, İbrahimxəlil xan şahın istəyi ilə razılaşır və qızı Ağabəyim İran hökmdarı Fətəli şahın xanımı olaraq İrana köçür. Bundan sonra, bir tərəfdən, şahın xanımı kimi Ağabəyim Ağanın kamil xarakteri, yüksək bilik və istedadı parlaq şəkildə aşkarlanır, o, nəinki İran şah sarayının, bütün müsəlman Şərqinin nüfuzlu maarifpərvər xanımı kimi tanınır. Lakin vətən həsrəti, qürbət acızı ömrü boyu ona əzab verir və bu duyğular bədii əsərlərinin başlıca mövzusu olur. Ağabəyim ağanın yaradıcılığı da doğma xalqının şeir ənənəsinə bağlıdır, vətənpərvər şairənin yaradıcılığı xalq poeziyasının lakonik və təsir gücünə görə tutumlu janrı olan bayatıların üstünlük təşkil etməsi ilə seçilir. Qarabağ ədəbiyyatı və aşıq mühitinin, Molla Pənah Vaqif məktəbinin yetirməsi olan Xan qızı Ağabəyim ağanın yaradıcılığının qeyd etdiyimiz xüsusiyyətləri haqqında aşağıdakı bayatılar dolğun təsəvvür yaradır:

Vətən bağı al-əlvandır,
Yox içində xarı bülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı, sarı bülbül?!

***

Mən aşiqəm qara bağ,
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ

Mən aşiqəm Qarabağ,
Şəki, Şirvan Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ! (Cəfərzadə 1991: 30-31)

XIX əsrin birinci yarısı Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Molla Pənah Vaqif ədəbi məktəbinin davamçısı, realizmin və maarifpərvər satiranın ilk nümyəndələrindən biri, ictimai satiranın banisi Qasım bəy Zakir bəy ailəsində anadan olmuş və ilk təhsilini dini məktəbdə alaraq, ilahiyyatı, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Uşaqlıq və gəncliyi haqqında geniş məlumat olmasa da mütəxəssislər Zakirin həyatının bu dövründən poeziyaya böyük maraq göstərdiyini, klassik şeiri və xalq yaradıcılığını dərindən mənimsədiyini təsdiqləyirlər (Məmmədov 2005: 4).

Həyatı boyu haqq və ədalət, insanlıq, düzlük, bilik və savad carçısı olmuş və buna görə çar məmurları tərəfindən sürgün edilmiş Qasım bəy Zakirin ədəbi yaradıcılığı yüksək ideallar üzərində qurulub və şairin yüksək humanist amallarını, bərabərlik, maarif ideyalarını ifadə edir. Əsərlərinin poetik aləmi isə, realizm, xəlqilik, tənqidi pafos, satira, həcv və kinayə, klassik və şifahi ədəbiyyatın dəyər və bədiiyyatını sintezi ilə seçilir, ana dilinin xəlqi ruhunu əks etdirir. Zakir anadilli poeziyamızın inkişafında müstəsna əhəmiyyəti olan şair olmuş, xalq şeirindən qaynaqlanan xəlqi özəllikləri ədəbiyyata gətirmişdir. Tanınmış tədqiqatçı Zaman Əsgərlinin göstərdiyi kimi, şairin əsərləri tariximizdə, realist satiranın inkişafında böyük rol oynamışdır (Əsgərli 2005: 20-21). Yaradıcılığının əsas xüsusiyyətlərindən biri real adamların, cəmiyyətin yüksək təbəsinin konkret üzvlərinin öz adı ilə əsərə gətirilib tənqid edilməsi, "feodal dünyasının yırtıcı, eybəcər nümayəndəsi kimi təqdim edilməsidir" (Məmmədov 2005: 11).

Zakirin ifşaedici, tənqidi, satirk əsərlərinin kəsərini və həm də müəllifə qarşı qəzəbi artıran mühüm bir cəhət isə – onun yaradıcılığında mücərrəd şər, zülm, ədalətsizlik anlayışları, məchul və ya alleqorik personajlar deyil, real adamların, cəmiyyətin yüksək təbəsinin konkret üzvlərinin, dövrün hökm sahibi olan Cəfərqulu xan Nəva, Əmiraslan bəy, Mehdi bəy Kəbirli, Hüseyn bəy, Xasay bəy kimi gerçək şəxslərin öz adı ilə əsərə gətirilib tənqid edilməsi, "feodal dünyasının yırtıcı, eybəcər nümayəndəsi kimi təqdim edilməsidir" (Məmmədov 2005: 11). Cəsarətlə gerçək həqiqətin aşkar edildiyi bu əsərlərin konkret və gerçək ünvanlı səciyyəsi onların təsir gücünü artırır və həm də müəllifə qarşı şər-böhtan kampaniyasını gücləndirirdi:

Görsən tanımazsan Yarımsaqqalı,
Çıxıb əndazədən dövlətü-malı,
Xandəmirov çaldı-çapdı mahalı,
O ki var tutub özün keçəl qurumsaq (Zakir 2005: 52).

Şuşa saray mühitinin mənəvi zənginliyini, dövrün mühüm mədəniyyət mərkəzlərindən olmasını Qarabağ Cavanşirlər sülaləsinin digər nümayəndəsi,

İbrahimxəlil xanın nəvəsi, sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı, Ağabəyim ağanın qardaşı qızı, əsərləri Azərbaycan Respublikasının dövlət varidatı elan edilmiş görkəmli şairə və maarifpərvər Xurşudbanu Natəvandır (Xurşidbanu Natəvan xanım Cavanşir-Usmiyeva). Ağabəyim Ağa Tuti, Aşıq Pəri, Fatma xanım Kəminə, Xanbikə (Natəvanın Xasay xandan olan qızı), Bəsti Kərbəlayı Bayramalı qızı, Gülgəz Maqsud qızı, Aşıq Humay, Aşıq Bəsti, Aşıq Sənəm, Gövhər ağa kimi simalarla təmsil olunmuş Qarabağ qadın poeziyasının ən parlaq nümayəndəsi olan Xurşudbanu Natəvanın həyatı xanlığın süqut dövrünə düşsə də, o, məhz saray ənənəsindən qaynaqlanan kübar mühitində tərbiyə və təhsil almış, xalq arasında Xan qızı kimi tanınaraq yaddaşlarda qalmışdır.

İlk təhsilini ailə mühitində alan Xurşidbanu Natəvan ərəb və fars dillərini, ilahiyyatı və dünyəvi elmləri, Şərq poetikasını yüksək səviyyədə öyrənmişdir. Molla Pənah Vaqif və Molla Vəli Vidadinin inkişafına güclü təkan verdiyi bu ədəbi mühitə Xurşidbanu Natəvanla yanaşı, digər əsilzadələr də daxil olmuşlar. Natəvanın nəsil şəcərəsi Cavanşirlər və Ziyadoğlu-Qacarlar sülalələrinə gedib çıxır. Onun mənsub olduğu bu soylara məxsus olan məşhur simalar – Cavanşirlərdən Əbülfət xan Tuti, Qasım Bəy Zakir, Ziyadoğlu-Qacarlardan Ziyadi Qarbaği, Müsahib Gəncəvi kimi şairlər Natəvanın qohumları olmuşdur. Müxtəlif poetik janrlardan istifadə edən Xurşidbanu Natəvan yaradıcılığının əsas motivləri klassik poeziyamıza xas mövzu və personajlar, zəmanədən, taledən fəlsəfi şikayət və eyni zamanda şəxsi həyatında yaşadığı ailə faciəsi, ayrılıq dərdi, oğul itkisi, mənəvi iztirablarla bağlı olmuşdur. Natəvan bu kimi fəci şeirlərində bəzən poetik təzad yaradır, bahar fəsli, açılan güllərlə övlad itkisindən doğan əzablar arasında əkslik vasitəsilə faciəvi duyğularını ifadə edir. İctimai fəallığı, xeyriyyəçiliyi ilə tanınan X.B.Natəvan Qarabağ şairlərinin toplaşdığı "Məclisi-üns"ü də himayə etmişdir, rəhbərlik etdiyi bu ədəbi "məclisin səsi-sədası nəinki Azərbaycan rayonlarına, hətta Tiflis, İrəvan, Təbriz, Tehran, Aşqabad və başqa şəhərlərə belə yayılmışdı" (Qarayev 2012: 149).

Qarabağ mühitində formalaşmış ən böyük şəxsiyyətlərdən biri – görkəmli ədib, şair, tarixçi, musiqişünas, rəssam, xəttat, nəqqaş, münəccim Mir Möhsün Nəvvab Şuşada ruhani məktəbdə və özünün "Türkcə Divan"ının Dibaçəsində yazdığı kimi "oxuduğu zaman ədəbiyyat, riyaziyyat, nücum (astronomiya) və musiqi elmlərini də öyrənmişdir" (Nəvvab 2006: 11). Təhsilini tamamladıqdan sonra "Müəllimliklə məşğul olan M.M.Nəvvab təşkil etdiyi yeni üsullu məktəbdə şagirdlər üçün dərslik yazmış, fars dilindən dərs vəsaiti kimi istifadə olunan kitabları tərcümə etmişdir" (Məmmədbağıroğlu 2006: 4).

Ədəbi istedadı və zəngin ensiklopedik bilikləri sayəsində Mir Möhsün Nəvvab tezliklə Şuşanın və ətraf kəndlərin söz-sənət sahiblərinin diqqətini cəlb etmiş, mənzilində qələm yoldaşları ilə ədəbi müzakirələr keçirilmişdir. Həmin dövrdə Şuşada fəaliyyət göstərən və nisbətən yüksək təbəqənin toplaşdığı "Məclisi-üns" 1872-ci ildə Xurşidbanu Natəvanın sarayında qərarlaşdıqdan sonra

Mir Möhsun Nəvvab kənarda qalmış, unudulmuş qələm əhlinin cəlb olunduğu "Məclisi-fəramuşan"ı yaratmışdır. "Məclisi-üns"də şeir və musiqi dinləmələri və müzakirələri ilə yanaşı, ictimai-mədəni məsələlərə də maraq göstərilirdi.

Maarifçi fəaliyyəti ilə yanaşı, Mir Möhsün Nəvvab mədəniyyət və elm tariximizə ilk növbədə öz elmi, didaktik və bədii əsərləri ilə düşüb. Klassik irsimizin görkəmli tədqiqatçısı və naşiri professor Paşa Əlioğlu "Mir Möhsün Nəvvabın poeziyası" adlı məqaləsində qeyd edir: "Elmin müxtəlif sahələrini kamil bilən Nəvvab 30-dan artıq əsər müəllifidir. Bunların içində "Kəşfül-həqiqə" (3 cilddə), "Bərhül-hüzən", "Kənzül-mühən", "Vüzuhül-ərqam", "Təzkireyi-Nəvvab", "Məzamir", "Şəmsül-hidayə", "Şərhi-üstürlab", "500 nəsihət" ("Nəsihətnamə"), "Müseyibnamə", "Ziyaül-ənvar", "Nurül-ənvar", "1905-1906-cı illərdə erməni-müsəlman davası" və digər əsərlərin adını çəkmək olar" (Əlioğlu 2014).

Müxtəlif mövzularda yazılmış bu əsərlərdən tarixi baxımdan keçən əsrin əvvəllərində erməni daşnaklarının xalqımıza qarşı törətdiyi soyqırımını və çarizmin onlara dəstəyinin canlı müşahidələri əsasında təsvir olunduğu "1905-1906-cı illərdə erməni-müsəlman davası"; ədəbiyyatşünaslıq baxımından yüzdən çox şairin adı çəkilən, haqlarında məlumat verilən "Təzkireyi-Nəvvab"; didaktik baxımdan "500 nəsihət" ("Nəsihətnamə"), "Kifayətül-ətfal, Nurül-Ənvar" və "Pəndnamə"; musiqişünaslıq baxımından "Vüzuhül-ərqam" müvafiq sahələr üzrə dərin bilik və məlumat daşıyan sanballı əsərlər olaraq bu gün də aktualdırlar. Lakin Mir Möhsün Nəvvabı bir qələm əhli kimi milli tarximizin qızıl fonduna salan onun ədəbi-bədii yaradıcılığı, şair kimi qələmə aldığı müxtəlif məzmunlu və formalı şeirləridir. Bəzi digər ədiblərlə müqayisədə şairin bədii əsərlərinin əksəriyyəti əlyazmalarında və hələ sağlığında Şuşada öz şəxsi daş mətbəəsində çap etdiyi iki divanında qorunub saxlanılıb.

Divanlarını sərbəst şəkildə tərtib edən Mir Möhsün Nəvvab qələmini məhdud şeir qəliblərində deyil, klassik şifahi poeziyanın qəzəl, mürəbbe, qitə, rübai, müxəmməs, müsəddəs, müəşşər, fərdlər, tərcibənd, tərkibbənd, qoşma kimi əksər janlarında sınamışdır. Şirin yaradıcılığını mövzu baxımından yeddi hissəyə bölən professor Paşa Əlioğlu qeyd etdiyimiz məqalədə bu bölmələri belə qruplaşdırır: 1) Lirik-aşiqanə şeirlər; 2) Dövrün müxtəlif şəxsiyyətlərinə həsr edilmiş şeirlər və ya mənzum məktublar; 3) Həyatdan, dünyanın vəfasızlığından şikayət ruhlu şeirlər; 4) Riyakar mollaları tənqid edən şeirlər; 5) Beynəlxalq hadisələrə həsr edilmiş şeirlər; 6) Vətənpərvərlik ruhlu şeirlər; 7) Dini mövzulu şeirlər. Müəllif haqlı olaraq, bu mövzu qruplarının əsərlərin məzmun və poetikasını da müəyyənləşdirdiyini və bununla da, şeirlərin klassik poeziya və ya dövrün maarifçi realist şeiri məcrasında olmasını təyin etdiyini bildirir. Bəzi satirik şeirlərində dövrü keçmiş "sahibi-əqli-şüuru" ittiham edir, arxaik söz oyunu, mücərrəd cümləpərdazlığı, həyatdan, insandan uzaq olan poetik şablonların daşıyıcılarını tənqid edir (Əlioğlu 2014).

Şuşanın XVIII yüzil və XIX əsrin əvvəllərindəki qaynar ictimai-mədəni həyatının zənginliyi, rəngarəngliyini, burada çağlayan mədəni həyatın paytaxt

şəhərlərindən geri qalmayan dolğunluğunu göstərən faktlardan biri də, qeyd etdiyimiz kimi, burada "Məclisi-üns"lə müvazi olaraq digər bir ədəbi dərnəyin – "Məclisi-fəramuşan"ın fəaliyyət göstərməsidir. Bu məclisin adı onunla bağlı idi ki, "Məclisi-üns"də şuşalı şairlərin hamısı təmsil olunmurdu və onlar «fəramuş olanlar» - kənarda qalıb unudulanlar və ya məclisin digər adı ilə - "xamuşan" səssiz qalanlar hesab olunurdu. Buna görə də onlar ayrıca məclis yaratmağı qərarlaşdırırlar və bu məqsədlə: "İlk dəfə Abdulla bəy Asi, Əbülhəsən Şəhid, Mirzə Əbdül Şahin, Fatma xanım Kəminə, Həsənəli xan Qaradaği və qeyriləri Mir Möhsün Nəvvabın hücrəsinə toplaşıb, onun rəhbərliyi altında fəaliyyət göstərirlər. Beləliklə də, təxminən 1872-ci ildə Şuşada ikinci bir ədəbi məclis – "Məclisi-fəramuşan» təşkil olunur" (Qarayev 2012: 199).

"Məclisi-üns"də olduğu kimi, bu məclisin də iştirakçılarının tam siyahısı yoxdur, müəyyən mənbələrdə "Məclisi-fərmüşan"da yuxarıda adlarını çəkdiklərimizdən əlavə, "Nəvvab Mir Möhsün ağa, Həsənəli xan Qaradaği, Məşədi Əyyub Baki məclisə daxil olmuş və son zamanlar şüəra Ağa Mirzə Cəlal, Səməd bəy, Bəhram bəy Fədai Vəzirov, Mirzə Əbdül Şahin, Həsən Qara Hadi, Mirzə İbrahim Tahir, Mirzə Fatı xanım Kəminə"nin toplaşdığı, bunların əsasən sadə təbəqədən olduqları bildirilir (Qarayev 2012: 191).

Məşhur şair, alim, rəssam Mir Möhsün Nəvvabın tərtib etdiyi "Tərkireyi-Nəvvab" əsərində bu şəhərdə yaşamış 100-dək ədibin adını çəkdiyini nəzərə alsaq, bu munis şəhərimizin həmin dövrdə necə qaynar ədəbi mühitə malik olduğunu və qeyd olunan məclislərin geniş tərkibini təxmin edə bilərik.

Nəsrəddin Qarayevin arxiv materialları əsasında təqdim etdiyi maraqlı bir fakt həmin dövrdə şuşalı şairlərin ədəbi biliyinin və bu şəhərdəki mədəni mühitin, ailə mühitinin, şəxsi kitabxanaların yüksək səviyyəsini əyani şəkildə göstərir: "Məclis şairlərinin çoxunun evində Sədi, Nizami, Cami, Nasir, Xosrov və başqa şairlərin əlyazmaları ilə yanaşı, müxtəlif təzkirələr də olurdu" (Qarayev 2012: 203-204). "Məclisi-üns»ün üzvü Məmai dostu Xudadad bəyə göndərdiyi bir şeirində onu öz evinə dəvət edərək ev kitabxanası haqqında yazmışdı:

Meyil etsən əgər kitabi-əşar,
Qövli-şüərayi-rastgöftar,
«Şahnamə»vü «Xəmseyi-Nizami»,
«Külliyyeyi-Sədi», «Səbha Cami»,
Mənzumeyi-fəxri-mülki-Şiraz,
Danayi-rümuzi-kaşifi-raz,
Xəmseyi-kütübi-Əmir Nasir,
«Atəşgədeyi» - Lətif hazir
Gəl bir neçə gün ənisim olgil,
Bu bəzmdə həmcəlisim olgil (Qarayev 2012: 203-204)

Nəsrəddin Qarayevin dediyi kimi, bu dövrdə "aşiqanə və dini məzmunlu qəzəl, qəsidə, növhə, minacat kimi əsərlərlə yanaşı, yeni ədəbi forma və buna muva-

fiq olaraq yeni məzmun yaranmağa başlayır... Rusiyanın böyük şəhərlərində təhsil alan, eləcə də rus ordusunda zabit kimi qulluq edən azərbaycanlıların sayı da getdikcə çoxalırdı... XIX əsrin birinci yarısından başlayaraq həcviyyatla yanaşı, həyatın zəruri tələbindən doğan ictimai məzmunlu satira da guclənir. Cəmiyyətdəki naqis cəhətlərin ədəbiyyatda əksi və tənqidi hətta qəzəl janrında da özünə yer tapır. Qadın simvolik təşbih qəlibindən çıxaraq, bəşəri xarakterə çevrilir, cəmiyyətin vacib və ləyaqətli uzvu kimi tərənnum və vəsf edilir" (Qarayev 2012: 13-14).

Qeyd edək ki, Şuşa şəhərində XVIII əsrin ortalarından başlayıb, XIX əsrin əvvəllərindən vüsətlənən maarifçi təfəkkür və maarifçi realizm, dünyəvilik, qadınların ictimai-mədəni həyatda fəal iştirakı, Ağabvəyim Ağa Tuti, Xurşidbani Natəvan, Aşıq Pəri, Fatma xanım Kəminə kimi şairələrin, Gövhər ağa, Qara Pirimli Nigar, eləcə də Ağabəyim Ağa Tuti, Xurşidbani Natəvan, Fatma xanım Kəminə kimi xeyriyyəçilərin fəaliyyəti Şuşada qadına münasibətin demokratikliyindən xəbər verir.

Belə bir zəngin mühitdə "Ədəbi məclislər ilk növbədə şeir-sənət məktəbi idi. Burada şeirlər, məsnəvilər yazılır, ədəbi müzakirələr aparılır, şeir normaları öyrədilir, nəzirələrlə ənənələr möhkəmlədilir və gələcək nəsillərə ötürülürdü... Məclis yığıncaqlarında yazılan şeirlərin müzakirəsi, forma-məzmun xüsusiyyətlərinin dəyərləndirilməsi ədəbi tənqid və ədəbi prosesin inkişafına öz təsirini göstərməkdə idi. Şeir, sənət məktəbi kimi şeirşünaslıq elminin qayda və normalarının öyrədilməsi, qorunması ədəbi məclislərin bəlağət və poetika məktəbi kimi də əhəmiyyətini müəyyənləşdirir" (Məmməd 2020: 24-25).

Bu prosesdə ədəbi məclislərdə müzakirə olunan təzkirələrin də xüsusi rolu qeyd olunmalıdır. Şuşa mühitində ədəbi və tarixi məzmunlu təzkirələr əhəmiyyətli yert tutub və buranın ədiblərinin yazdığı təzkirələr, şeir topluları yalnız tarixi deyil, mühüm filoloji dəyərə malikdir. Şuşada xan qızı, şairə Ağabəyim Ağa Tutinin bir çox şairlərin əsərlərini yazıb topladığı "Bəyaz"ının, Xurşidbanu Natəvanın "Gül dəftəri"nin olması bəllidir. Görkəmli ədəbi şəxsiyyətlər haqqında bioqrafik məlumat, əsərlərindən nümunələr verilən bu təzkirələr, tarixi salnamələrlə yanaşı, Azərbaycan mədəniyyətini mühüm bir mühitinin tarixinin, ədəbi özəlliklərinin, ədəbi dil, bədii üslub, janr, vəzn, mövzu, məzmun kimi bir sıra məsələlərin tədqiqində olduqca mühüm mənbədir. Eyni zamanda bu əsərlərdəki dövrləşdirmə, şərh, təqdim prinsipləri, elmi üslub filoloji fikir tariximizin öyrənilməsində əhəmiyyətli qaynaqdır. Bu baxımdan Qarabağ-Şuşa ədəbi-mədəni mühiti haqqında dolğun təsəvvür yaradan təzkirələrdən, Mir Möhsun Nəvvabın yuxarıda adlarını çəkdiyimiz "Təzkireyi-Nəvvab" ilə yanaşı, Mirzə Yusif Qarabağinin "Məcmueyi Vaqif və müasirini-digər", Mir Mehdi Xəzaninin "Xəzani təxəllüslü Seyid Mir Mehdi ağanın və sair Qarabağ şairlərinin şeirlər - Xəyalat məcmuəsi", Həsənəli Xan Qaradağinin "Xan Qaradaği", Məhəmmədağa Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirələri olduqca zəngin məlumata malikdir. Qeyd edək ki, təzkirə ənənsi bu gün də davam edir. Azərbaycan təzkirəçilik tarixi dəyərli tədqiqatçısı Vüsalə Musalının

göstərdiyi kimi, XX əsrdə 9 təzkirə yazılmışdır. XXI əsrdə isə klassik tərzdə təzkirəni Şahin Fazil tərtib etmiş və 2006-cı ildə nəşr etdinnişdir (Musalı 2012: 338). Şuşa ədiblərinin, məclis üzvlərinin böyük bir qismi poeziya ilə yanaşı, ictimai məsələlərdə də fəal olmuş, elmi yaradıcılığa meyl etmişlər. Bu baxımdan "Nəvvabın uzun illər elmi ictimaiyyətdən gizli saxlanan "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri xalqımızın keşməkeşli tarixini faktlar əsasında dəyərləndirmək baxımından qiymətli tarixi qaynaqdır. "Məclisi-ün"s üzvü Mirzə Həsənin "Rəsmi-vilayəti-Qarabağ və şəhri-Şişə" ("Qarabağ vilayəti və Şuşa şəhərinin adətləri") məsnəvisi də bədii olmaqla bərabər, tarix, etnoqrafiya baxımından da araşdırılası qiymətli məxəzdir" (Məmməd 2020: 24-25). Şair, alim, rəssam, lirik şeirlərin və "Təzkireyi-Nəvvab"ın müəllifi, "Məclisi-fəramuşan"ın rəhbəri Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası"ndan başqa, ermənilərin törətdiyi soyqırımlar onun bədii yaradıcılığında da əks olunub. Milli tarixşünaslığımızın mənbələrindən olan "Qarabağnamələr"in müəllifləri Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir Qarabaği, Mir Mehdi Xəzani, Əhməd bəy Cavanşir, Mirzə Yusif Qarabaği, Rzaqulu bəy Mirzə Camal oğlu, Həsən İxfa Əlizadə, Mirzə Rəhim Fəna, Mirzə Vəli bəy Baharlı, Həsənəli xan Qaradaği də Qarabağ-Şuşa elmi-mədəni və ədəbi mühitinin yetirmələri idi. Bu müəlliflərdən Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal bəy Cavanşir Qarabağinin "Qarabağ tarixi", Əhməd bəy Cavanşirin "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair", Mirzə Yusif Qarabağinin "Tarixi-safi", Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ", Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri", Mirzə Rəhim Fənanın "Tarixi-cədidi-Qarabağ", Qarabağ xanını vəziri, şair Mirzə Vəli bəy Baharlının "Əhvalati-Qarabağ", Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi", Həsənəli xan Qaradağinin "Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları"... əsərləri olduqca qiymətli və əvəzsiz tarixi əsərlər, mənbə və məxəzlərdir" (Bayramov 2021: 121-135). Məqalədə milli ədəbiyyatımızın maarifçilik zəminində yeniləşməsində Şuşa ədəbi mühitinin klassik ədəbi ənənələrdən və Avropa mədəniyyətindən qaynaqlanan səciyyəsi, yeni ədəbi meyllərin, realist yaradıcılıq metodu və üslubunun formalaşması, bu prosesdə Şuşada yaşayıb fəaliyyət göstərən ədiblərin, eləcə də ədəbi məclislərin proqressiv rolundan bəhs olunur. Beləliklə Şuşa ədəbi mühitinin ümummilli ədəbi-estetik və ictimai-mənəvi rolu yeni aspektdən bir daha təsdiqlənir.

Beləliklə, XVIII-XIX yüzillərin Şuşa ədəbi mühitinin, xüsusən buradakı ədəbi məclislərin və ədiblərin reallığa yönəlmiş, dünyəvi mövzularla zəngin yeni ədəbi mərhələnin, maarifçi-realist ədəbiyyatın təməlini qoydular. Bununla da Orta əsrlərin ədəbiyyatından tamamilə fərqli ədəbi-estetik fenomen meydana çıxdı, eyni zamanda sonrakı mərhələyə XIX - XX əsrin əvvəllərinin tənqidi realizminə və romantizminə keçidin fəlsəfi-ideoloji və ədəbi-estetik zəminini yaratdılar.

## ƏDƏBİYYAT

1. Adıgözəl bəy, Mirzə. Qarabağnamə. Bakı: AMEA, 1950.
2. Araslı, Həmid. Şerimizin fəxri. Molla Pənah Vaqif. Əsərləri. Bakı: Şərq-Qərb, 2004.
3. Azərbaycanın aşıq və şair qadınları / Tərtib edən: Əzizə Cəfərzadə. Bakı: Gənclik, 2005.
4. Bayramov, Qurban. Qarabağ-Şuşa ədəbi-mədəni mühiti – uzaq keçmişdən bu günümüzə qədər. Azərbaycan Dili və Ədəbiyyatı Tədrisi, № 2, s. 121-135, 2021.
5. Bayramov, Qurban. Molla Pənah Vaqif və Qarabağ ədəbi mühiti. Ədalət qəzeti, 21 dekabr, 2017.
6. Çəmənzəminli, Yusif. Qan icində. Bakı: Azərnəşr, 1967.
7. Əliyev, Əli Umud oğlu. Qarabağ ədəbi mühiti və Mir Möhsün Nəvvab. Bakı: ADPU, 2016.
8. Əlioğlu, Paşa. Mir Möhsün Nəvvabın poeziyası. 525-ci qəzet, 4 avqust, 2014.
9. Əsgərli, Zaman. XIX əsr Azərbaycan poeziyası. XIX əsr Azərbaycan şeri antologiyası. Bakı: Şərq-Qərb, 2005.
10. Hacılı, Asif. Şuşa: ədəbi-mədəni mühit. Bakı: CBS Polygrafic production, 2022.
11. Köçərli, Firidun. Azərbaycan ədəbiyyatı. İki cilddə, I cild. Bakı: Elm, 1978.
12. Məmməd, Tahirə. Şuşa ədəbi məclisləri: funksiya və missiyası. 14 noyabr, s. 24-25, 2020.
13. Mahmudov, Malik. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər). Bakı: Elm, 1983.
14. Məmmədov, Bəylər. Natəvanın şair qohumları. Bakı: Yazıçı, 1989.
15. Məmmədov, Kamran. Qasım bəy Zakir. Seçilmiş əsərləri. Bakı: Avrasiya-Press, 2005.
16. Məmmədbağıroğlu, Əli. Mir Möhsün Nəvvab və onun türkcə divanı. Mir Möhsün Nəvvab. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006.
17. Musalı (Səmədova), Vüsalə Azər qızı. Azərbaycan təzkirəçilik tarixi. Bakı: Elm və təhsil, 2012.
18. Nəbiyeva, Almara. Qarabağ aşıq mühiti. Bakı: Təknur, 2019.
19. Nəvvab, Mir Möhsün. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006.
20. Qacar, Çingiz. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı: Nicat, 1997.
21. Qasımzadə, Feyzulla. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1966.
22. Qarabaği, Mirzə Camal Cavanşir. Qarabağ tarixi. Qarabağnamələr. I kitab. Bakı: Şərq-Qərb, 2006.
23. Qarayev, Nəsrəddin. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: Elm və təhsil, 2012.
24. Qarayev, Yaşar. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: Elm, 2002.
25. Zakir, Qasım bəy. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005.

**Rəyçi: f.e.d., prof. Qorxmaz Quliyev**